# Qərbi azərbaycanlıların geri qayıdışı ədalətin bərpası olacaq

Hər bir dövlətin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun davranması onun üzərinə düşən öhdəlikdir. O, mövcud beynəlxalq nizamı və üzərinə götürdüyü öhdəlikləri pozursa, o zaman onun qarşısı alınmalı, müxtəlif təsir metodları ilə çəkindirilməlidir.

Ekspertlərin də qeyd etdiyi kimi, qaçqınların geri qayıdış hüququ beynəlxalq hüquqi nizamın tərkib hissəsidir. BMT-nin İnsan Hüquqları Komitəsi bu hüququ belə şərh edib: "Dövlətlər vətəndaşlarını ölkəyə buraxmamaq üçün çox güclü əsaslara malik olmalıdır. Hətta ölkədən məcburi çıxarılan və ya girişinə qadağa qoyulan şəxslər belə, müəyyən hallarda qayıtmaq hüququna malik ola bilərlər".

Geri qayıdış hüququ BMT-nin bir sıra vacib konvensiyalarında da öz əksini tapıb. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində birmənalı şəkildə qeyd olunur: "Hər kəs istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və ona qayıtmaq hüququna malikdir". Bu, beynəlxalq hüquqda qayıtmaq hüququnun əsas ifadəsidir.

Milli Məclisin üzvü, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli Antalya Diplomatiya Forumunda "Parlament Diplomatiyası və Qlobal İdarəetmə" panelində çıxışında bu məsələyə daha geniş yer ayırmışdır: "Bu format eyni zamanda bölgəmizdə haqq-ədalətə, insan hüquqlarına və barışa xidmət edən mühüm bir məsələni - Qərbi Azərbaycana qayıdış məsələsini təqdim etmək, onun beynəlxalq aləm üçün önəmini anlatmaq və bu sorunun çözümündə parlament diplomatiyasının potensialı barədə söz açmaq imkanı yaradır. Qərbi Azərbaycan İcmasının sədri olaraq, mən Ermənistandan zorla çıxarılmış yüz minlərlə azərbaycanlının səsini təmsil edirəm. Bizim doğma yurdlarımızdakı, yəni indiki Ermənistan ərazisindəki türk-müsəlman əhali 20-ci əsr ərzində bir neçə dəfə sistemli şəkildə etnik təmizləməyə məruz qalıb. 1987-1991-ci illərdəki sonuncu deportasiya dalğasında 300 mindən çox azərbaycanlı - Azərbaycan türkü öz ata-baba evlərindən qovulub. Bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmayıb. Bu, Ermənistanın irqi ayrı-seçkilik, radikal millətçilik və monoetnik cəmiyyət yaratmaq siyasətinin nəticəsidir".

Qəbiristanlıqlarımız, məscidlərimiz, mədəni abidələrimiz məqsədyönlü şəkildə dağıdılıb, etnik təmizləmə nəticəsində adət-ənənələrimizə və sosial bağlarımıza ciddi şəkildə ziyan dəyib. Ermənistan bu ərazilərdə Azərbaycan irsinin vəziyyətini araşdırmaq üçün UNESCO-nun missiya göndərməsinə icazə vermir. Bu, təkcə xalqımıza deyil, bəşəriyyətin kültürəl dəyərlərinə və kültürəl müxtəlifliyinə vurulan böyük zərbədir.

Qərbi Azərbaycan problemi bölgəsəl çərçivədən kənara çıxır və insan hüquqları, ədalət və kürəsəl barış kimi ümumbəşəri dəyərləri əhatə edir. Qərbi azərbaycanlılar silahlı münaqişə və etnik təmizləmə səbəbiylə ana vətənlərindən didərgin düşüblər.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsi hər kəsin öz ölkəsinə qayıtmaq hüququnu təsbit etsə də, Ermənistan buna əməl etmir, yüzminlərlə insanın hüququnu pozur.

İcma sədri illər öncə öz ata-baba yurdlarından zorla qovulmuş minlərlə ailənin fikirlərini ifadə edərək bildirmişdir ki, Qərbi Azərbaycan İcması olaraq, 1989-cu ildən bəri haqq işimiz uğrunda mübarizə aparırıq. Xüsusilə, 2022-ci ilin dekabrında Prezident İlham Əliyevin icmamızı ziyarət edərək göstərdiyi diqqət və verdiyi tövsiyələr səylərimizi gücləndirib. 2023-cü ildə qəbul etdiyimiz Qayıdış Konsepsiyası ilə doğma torpaqlarımıza sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə dönmək istəyimizi uluslararası hüquq çərçivəsində ortaya qoymuşuq. Azərbaycan dövlətinin bu məsələdəki prinsipial dəstəyi bizim üçün böyük dayaqdır. Lakin bu məsələnin həlli təkcə Azərbaycanın üzərinə düşən yük deyil - bir insan hüquqları məsələsi kimi, bu, uluslararası toplumun birgə sorumluluğudur.

Əziz Ələkbərli bildirmişdir ki, parlamentlər xalqların səsini təmsil edir, xarici siyasəti istiqamətləndirir və dövlətlər arasında qarşılıqlı anlaşmanı təmin edir. Qərbi Azərbaycan məsələsində parlament diplomatiyası bir neçə mühüm istiqamətdə töhfə verə bilər.

Birincisi, parlamentlər uluslararası toplumun diqqətini bu problemin ədalətli həllinə cəlb edər. Xarici dövlətlərin parlamentləri qərbi azərbaycanlıların qayıdış hüququnu dəstəkləyən bəyanatlar qəbul edə, Ermənistanın etnik təmizləmə siyasətini pisləyə və bu hüququn təmin edilməsi üçün təzyiq mexanizmləri yarada bilər.

İkincisi, parlament diplomatiyası sülh və barışıq üçün zəmin yarada bilər. Xarici dövlətlərin parlamentləri Qərbi Azərbaycan İcmasının Ermənistan hökumətinə göndərdiyi dialoq təklifinə dəstək ifadə etməsi bu dialoqun baş tutmasına önəmli dərəcədə yardım edərdi.

Üçüncüsü, uluslararası təşkilatlar məsələ ilə məşğul olaraq, qərbi azərbaycanlıların qayıdış hüququnun tanınması və praktiki həlli üçün daha geniş dəstək yarada bilər. Bu baxımdan, Asiya Parlament Assambleyasının və cəmi bir neçə gün öncə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin qərbi azərbaycanlıların qayıdış hüququna dəstək verməsi və Qərbi Azərbaycan İcmasının dialoq çağırışını təqdir etməsi mühüm hadisədir. Hesab edirəm ki, digər parlament assambleyaları da oxşar addımlar ataraq bu prosesə dəstək verə bilərlər.

Görünən odur ki, bu kimi beynəlxalq tədbirlərdə Qərbi Azərbaycan məsələsinin gündəmə gətirilməsi dünya parlamentlərini qərbi azərbaycanlıların qayıdış hüququnun təmin edilməsi üçün Ermənistana qarşı təzyiq göstərməyə cəlb edə bilər. Bu vacibliyin ana xəttini təşkil edən qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmaq istəyi beynəlxalq hüququn normalarına əsaslanan qanuni bir haqdır. Qərbi azərbaycanlıların geri qayıdışı ədalətin bərpası, həm də bölgədə dayanıqlı sülhün və qarşılıqlı etimadın qurulması üçün mühüm addımdır. Bu insanlar öz torpaqlarından zorla çıxarılıblar və tarixi-mədəni kökləri həmin bölgələrdədir. Ermənistan rəhbərliyi Qərbi Azərbaycan İcmasının qayıdış istəyini reallaşdırmalıdır. Bu, Ermənistanın hüquqi və humanitar öhdəliklərindən biridir, həm də onun sülh prosesi çərçivəsində məsuliyyətli davranış nümayiş etdirməsi üçün vacibdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 18 aprel (№ 76).- S.8.